Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 3 ” avqust tarixli
256 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanlara münasibətdə sığorta məbləğinin müəyyənləşdirilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 14.4-cü maddəsinə əsasən hazırlanmışdır və Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanlara (bundan sonra – sığorta olunanlar) münasibətdə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (bundan sonra – sığorta) məbləğinin müəyyənləşdirilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **birillik əməkhaqqı fondu** – əmək müqaviləsi əsasında əmək funksiyalarını yerinə yetirən sığorta olunanlara münasibətdə əmək müqaviləsində nəzərdə tutulan aylıq vəzifə maaşı və ona əlavənin cəminin on iki mislində, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 avqust tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 2-1.1-ci maddəsində nəzərdə tutulan sığorta olunanların icbari sığortası üzrə sığorta ödənişinin məbləği və verilməsi Qaydası”nın 1.2.2-ci yarımbəndinə uyğun olaraq mülki-hüquqi müqavilə əsasında öhdəliklərini yerinə yetirən sığorta olunanlara münasibətdə müəyyən edilən ortaaylıq gəlirin və istehsalat təcrübəsi (təlimi) keçən tələbələrə və şagirdlərə, könüllü fəaliyyətin iştirakçısı olan könüllülərə münasibətdə müəyyən edilən şərti gəlirin on iki mislində hesablanan məbləğ;

1.2.2. **gətirilmiş gözlənilən dəyər** – faiz dərəcəsi və sığorta olunan şəxsin yaşı nəzərə alınmaqla, hesablanan (diskontlaşdırılan) və gələcək tarixlərə aid olan məbləğlərin sığorta haqqının hesablandığı tarixə gözlənilən (ehtimal olunan) dəyəri;

1.2.3. **prenumerando annuitet** – ödənişləri dövrün əvvəlində həyata keçirilən annuitet;

1.2.4. **sığortaçı** – Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu;

1.2.5. **sığortalı** – sığorta olunanlar üçün sığorta haqqı ödəyən dövlət orqanları, bələdiyyələr, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslər və büdcə təşkilatları.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Sığorta məbləğinin müəyyənləşdirilməsi

2.1. Sığortaçı sığorta məbləğini hesablayarkən illik faiz dərəcəsini 8 (səkkiz) faiz götürməlidir.

2.2. Sığortalı tərəfindən xeyrinə sığorta fəaliyyəti həyata keçirilməli olan N sayda sığorta olunanlar üzrə $i$ -ci sığorta olunana münasibətdə sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$SM_i = a_{x_i}^{-(12)} \times P_i$$

burada:

$SM_i$–$i$ -ci sığorta olunana münasibətdə sığorta məbləği;

$x_i$– $i$ -ci sığorta olunanın yaşı;

$P_i$ – $i$ -ci sığorta olunanın qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanan birillik əməkhaqqı fondu;

$a_{x_i}^{-(12)}$ –yaşı $x_i$ olan şəxs üçün aylıq ödənişi $\frac{1}{12}$-ə bərabər olan prenumerando aylıq anuitetin gətirilmiş gözlənilən dəyəri.

2.3. Sığortalı tərəfindən xeyrinə sığorta fəaliyyəti həyata keçirilməli olan N sayda sığorta olunanlar üzrə ümumi sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$SM = \sum_{i=1}^{N} SM_i$$

burada:

$SM$– ümumi sığorta məbləği;

$N$– sığorta olunanların sayı;

$i$ – cəmləmə indeksi;

$SM_i$–$i$ -ci sığorta olunana münasibətdə sığorta məbləği.